AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ALİ HASSAN OĞLU ALİKHAH**

# GİLAN BÖLGƏSİNDƏ MƏSKUNLAŞMA SİSTEMİNİN MƏKAN STRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

*İxtisas: 64.05.01 – "Şəhərsalma, yaşayış məntəqələrinin planlaşdırılması, landşaft memarlığı"*

Memarlıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**BAKI – 2014**

*Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq layihələndirilməsi və şəhərsalma" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**

Azərbaycanın əməkdar memarı, Şərq Ölkələri Beynəlxalq memarliq akademiyasının həqiqi üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, memarlıq üzrə elmlər doktoru, professor
**F.M.HÜSEYNOV**

**Rəsmi opponentlər:**

Azərbaycanın əməkdar memarı, Şərq Ölkələri Beynəlxalq memarliq akademiyasının həqiqi üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, memarlıq üzrə elmlər doktoru, professor
**N.H.NAĞIYEV**

Memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Y.Ə.HACIYEVA**

**Aparıcı təşkilat:**

Azərbaycanın Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət Institutunun "Memarlıq, şəhərsalma və abidələrin bərpası" şöbəsi

Müdafiə "03"oktyabr 2014-cü ildə saat "11$^{00}$"da Azərbaycan Memarlıq və İnşaat Universitetində keçiriləcəkdir. Ünvan: Az 1073, Bakı şəhəri, A.Sultanova küç. 5, korpus I.

Dissertasiya ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___"_______2014-cü il tarixdə göndərilmişdir.

**FD. 02.041**
**Dissertasiya Şurasının elmi katibi,**
**memarlıq üzrə fəlsəfə doktoru,**
**dosent** **S.İ.ALLAHVERDİYEVA**

**Gilan bölgəsinin şəhərlərinin yeni məskunlaşma layihələri**













*Kağız formatı 60x84 1/16,*
*Çap vərəqi: 2.5*
*Sifariş № 48. Tiraj 100.*

***Memar Nəşriyyat Poliqrafiya MMC***

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ АРХИТЕКТУРНО-СТРОИТЕЛЬНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АЛИ АЛИХАХ**

# ПРЕОБРАЗОВАНИЕ ПРОСТРАНСТВЕННОЙ СТРУКТУРЫ СИСТЕМЫ РАССЕЛЕНИЯ ОБЛАСТИ ГИЛАН

*Специальность: 64.05.01 – «Градостроительство, планировка населенных мест, ландшафтная архитектура»*

## АВТОРЕФЕРАТ

диссертации на соискание учёной степени
доктора философии по архитектуре

**БАКУ – 2014**

**Gilan bölgəsinin şəhərlərinin müxtəlif təsvirləri**














**Rəşt – Sumehsəra – Astara – Lahijan və Pəresər şəhərlərinin xəritələri**


















## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzünun aktuallığı.** Məskunlaşma şəhərsalma prosesinin özəyində duran insanın həyat tərzini və yaşayış yerini təmin edən bir fəaliyyətdir. Tarixən insanın məskan yerləri onun təsərrüfat, müdafiəsi əlagələrini cəmləyən məkan kimi ətraf mühitin istifadə formasını özündə əks etdirir. Bu gün məskunlaşma artıq mürəkkəb həyat tərzini təmin edən amil kimi yaşayış ərazilərinin sosial-iqtisadi məsələləri həllində və torpaqların müxtəlif təyinatlı istifadəsində aparıcı rol oynayır və hər bir ölkə, vilayyət, bölgə fərdi xüsusiyyət nümaiş edirlər. Təqdim olan problem öz təzahürünü İranın şimal bölgəsi olan Gilan vilayyətində xüsusi bir formada göstərir. Bir çox aspektlərdən fərqlənən Gilan vilayyətini məskunlaşma sisteminin (iri miqyaslı olması, sıx məskunlaşma xarakteri, önəmli coğrafi mövgeyi və s.) mövcud vəziyyətinin pozetiv dəyişilməsində və təkminləşməsində ciddi araşdırmaların aparılmasını tələb edir. digər tərəfdən öz təbii-iqlim şəraitinə, rahat xarici əlagələrinə və ənənəvi struktur quruluşuna görə perspektiv inkişaf tapdığına görə böyük məna kəsb edir. bu üzdən, Gilan bölgəsinin yararlanma dəyərində onun tərkibində olan 49 şəhər, 16 rayon, 109 kənd və 3 mindən yuxarı olan yaşayış məntəqələrinin istiqamətləri böyük rol oynayır. Bu üzdən regional səviyədə məskunlaşma sisteminin transformatik və məkan-struktur təkmilləşdirilməsi oradakı yaşayış məntəqələrində yemiləşməsində aparıcı rol oynayacaq. Bu uzdə bir zəngin torpaq mülkiyyətləri olan bölgənin funksional fəaliyyətinin fəallaşdırılması bir təhlil obyekti kimi ölkənin aktual problemləri sırasına daxil olduğundan aktualdır. Buna sübut bir çox obyektlərdə, o cümlədən İranın özündə, məskünlaşma problemləri təqdim edilir, rasional sistem yaradılmasında geniş addımlar atılır. Gilan bölgəsində sıx məskunlaşma sistemi (əsasən də şəhər məskunlaşma qruplaşmasında) mövcudluğunda onun sosial-iqtisadi inkişafı prosesinin tələb etdiyi ərazinin plan-məkan quruluşunun dəyişkənliyini vacib edir və onun sistemli kompleks təkminləşdirilməsini zəruri edir. Bunlarla yanaşı, bölgəyə xas olan bir çox xüsu-

siyyətlər mövcudluğunda (landşaft və su komponentlərin təsiri, kənd təsərrüfat üçün yararlığı əhalisinin dinamikliyi, miqrasiya prosesinin fəal getməsi və s.) onun davamiyyətli fəaliyyətini təmin edən rasional yolların tapılmasını tələb edir. bu baxımdan bölgə ərazilərinin plan-məkan təşkili və rasional struktur dəyişikliyi yerli potensialların üzə çıxarılmasını analitik material kimi ön plana çəkir. Və "insan-təbiət" əlagəliyini vahid iri bir fəza sistemində işləməsini əsaslandırır. Mövzunun aktuallığını isbat edən faktorlardan biridə tədqiqat hədəfi olan Gilan vilayəti Dövlət sosial-iqtisadi inkişaf Proqramı çərçivəsində baxılıb təhlil edilməsidir, bu isə bu zonanın yerli təbiət və istehsal qüvvələrinin imkanlarını birləşdirməyə çağırır.

**Sualın qoyuluşu:** Müasir Azərbaycan şəhərsalmasının inkişaf məsələlərinin işıqlandırılmasına F.M.Hüseynovun, A.Ə.Həsənovanın, A.M.Talıbovun, N.Ə.Əliyevin, E.R.Abdullayevin, N.Ə.Ağayeva, X.Ə.Cəfərov, S.X.Dadaşeva, A.M.Əzizov, Ş.Ş.Qəhrəmanovanın, Y.Ə.Hacıyevanın, E.F.Hüseynovun, F.A.Mollazadənin, N.H.Nağıyevin, S.İ.Orucovun, Ə.Z.Vəkilovanın, N.O.Yusifovanın və b.işləri böyük təkan vermişdir. İran şəhərlərinin memarlığına dair problemlər üzrə xeyli material toplanmışdır. Böyük elmi əhəmiyyət kəsb edən tədqiqatlar sırasında Nadir Ərdalanın, Behzad Nəsəb Canəlinin, Epenham Nurbertin, Əşkuri Seyid Həsən Məsuminin, Əzimi Naserin və digər İran alimlərinin elmi işlərini qeyd etmək olar. Belə mürəkkəb bir həcm-məkan strukturu olan bölgəyə həsr edilmiş elmi tədqiqat və araşdırmalar çoxdur. Onların bəzilərində bölgənin tarixi və memarlıq abidələri təhlil edilir, bəzilərində bölgənin coğrafi-landşaft dəyərləndirilməsində iqtisadi məsələlərin həlli yolları təklif olunur, digərlərində isə şəhərlərin nəqliyyat xidmət, yaşıllaşdırma sistemlərinin rekonstruksiyası tədqiqat obyekti kimi seçilmişdir. İranın, və o cümlədən də ölkənin Gilan bölgəsinin şəhərsalma problemələrinə həsr edilən ayrı-ayrı tədqiqatlara və nəşrlərə baxmayaraq, bölgənin məskunlaşma sisteminin məkan strukturunun təkmilləşdirilməsi problemləri bu tədqiqatlarda və nəşrlərdə çox zaman qismən əks olunmuş və yaxud yox dərəcəsindədir.

**Tədqiqatın məqsədi** Gilan bölgəsinin mövcud məskunlaşma








**Əyalətdə şəhər fəzasının dərəcələr əsasında bölüşdürülməsi**




**Mənbə:**
**" Naser Azimi Dobakhshari " The History of Social-Economic Transfomation in Gilan**



xarakterini öyrənərək, onun iqtisadi, şəhərsalma və ekoloji mahiyyəti fonunda plan-məkan quruluşunun müasir tələblərə uyğun təkminləşdirilməsindən və baş elementləri olan şəhər, kənd, yaşayış məntəqələrinin yeniləşməsini təmin edən yeni həcm-məkan modellərininin işlənib hazırlanmasından ibarətdir.

Tədqiqat məqsədinə uyğun aşağıdakı **məsələlərə** baxılmışdır:

-Tarixən bölgə ərazilərinin daimi məskan yerləri kimi seçilib mənimsənilməsi və tarixi mərhələlərdə inkişaf etdirilməsi;

- Bölgədə məskan yerlərinin formalaşmasını təyin edən amillər toplumunun təhlil edilməsi və bu sahədə digər ölkələr təcrübəsinin müsbət nəticələri haqqında məlumatların verilməsi;

- Gilan bölgəsində mövcüd olan məskunlaşma sisteminin plan-məkan quruluş xüsusiyyətinin üzə çıxarılması;

- Bölgənin ölkənin sonuncu Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan plan-məkan dəyişikliklərin kompleks qiymətləndirilməsi;

- Vilayyətin nəzərdə tutulan inkişaf miqyasına müvafiq yeniləşmə yolunda transformasiya prinsiplərinin həyata keçirilməsi;

- Gilan məskunlaşma sistemində aparıcı rol oynayan – şəhər, kənd, məkan-kommunikasiya qurumlarının plan-məkan baxımdan təkmilləşdirilməsinə aid modellərin təklifi.

**Tədqiqat obyekti** kimi Gilan bölgəsinin məskunlaşma sistemi, onun aparıcı həcm-məkan elementləri - şəhər, kənd və digər yaşayış məntəqələri seçilmişdir.

**Tədqiqat metodikası-** təhlil üsullarına istinad edir, o cümlədən: problemə toxunan fundamental və ötərgi nəşrlərin analizi aparılır layihə təşkilatlarının və arxiv materiallarının araşdırılması və fotofiksiya metodlarına müraciət edilir, əhali arasında sosial sorğu və modelləşmə metodları istifadə edilir.

**Tədqiqatın elmi yeniliyi** ondadır ki, təhlil hədəfi olan Gilan bölgəsi üçün ilk dəfə regoinal səviyyədə dövlət Proqramı çərçivəsində ölkənin sosial-iqtisadi inkişafına müvafiq və vilayət bölmələrinin mikroməskunlaşma sistemləri üçün yeni plan-məkan quruluşunun modelləri təklif olunur.

**Dissertasiyanın praktiki əhəmiyyətii.** Təqdim olunan iş İran, o cümlədən də onun şimal bölgəsinin məskunlaşma sistemləri daxilində yerli şəhər, kənd, kimmunikasiya mərkəzlərinin layihələndirmə prosesində tətbiqi imkanı əldə edilir. Belə ki, sistem və mikrosistem təşkilində şəhər, kənd və digər yaşayış mənrəqələrinin yeniləşməsi üçün müxtəlif transformasiya prinsipləri təklif olunur, rekonstruksiyalarını əsaslandıran planlaşma, nəqliyyat, xidmət, yaşıllaşdırma və s. sistemlərin sistemlərin sxemləri tutulur, harada bu dayaq qurumlar üçün yeni ərazi forması, planlaşma strukturu, funksional zonalaşma və digər proseslərin qrafiki həlli təklif edilir. Tədqiqatın digər praktiki əhamiyyəti elmi nəticələrin ölkənin şəhərsalma fənləri tədris olunan universitetlərinin tədris prosesində elmi-metodik əsas kimi istifadə edilmə imkanından irəli gəlir.

**Dissertasiyanın əsas müddəalarının aprobasiyası.** Tədqiqatın ayrı-ayrı bölmələrinin məzmunun və təhlili üzrə 2005-2013-cü illər arası AzMİU-nun elmi əsərlərində və beynəlxalq mahiyyəti olan elmi-praktiki konfraslarında məruzələr edilmiş və məqalələr çap olunmuşdur.

**İşin strukturu və həcmi.** Dissertasiyanın mətn hissəsi (120 s.) girişdən, üç fəsildən, yekun nəticələrdən və ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın qrafiki hissəsi 40 cədvəldə öz əksini tapmışdır. Ayrıca “əlavələr” bölməsində mövcud məskunlaşma sisteminin yaşayış məntəqələrinin müasir vəziyyətinə aid struktur göstəriciləri, demoqrafik quruluşunun tərkib hissələri və əlavə məlumat cədvəlləri təqdim edilmişdir.



**Əyalətin magistral yolunda nəqliyyatın gündəlik ikitərəfli ümumi hərəkəti**




Mənbə:
“ Naser Azimi Dobakhshari “ The History of Social-Economic Transfomation in Gilan

**Əyalətin sənaye ərazilərini göstərən xəritə**




**Mənbə:**
**" Naser Azimi Dobakhshari " The History of Social-Economic Transfomation in Gilan**



# İŞİN MƏZMUNU

**"Gilan bölgəsinin məskünlaşma sisteminin mövcüd məkan-struktur quruluşu xüsusiyyəti və inkişaf zəminləri"** adlı I fəsildə İranın Gilan bölgəsində ərazilərin tarixən ilkin məskən yerləri kimi mənimsənilməsi tədqiq edilir, Gilanın məskunlaşma xarakterinin formalaşmasında amillərin rolu araşdırılır, xarici ölkə təcrübəsində məskunlaşma quruluşunun təhlili aparılır.

**1.1. İranın Gilan bölgəsində ərazilərin tarixən ilkin məskən yerləri kimi mənimsənilməsi.** İranın şimal bölgəsində yerləşən Gilan vilayəti hələ çox qədim zamanlarda məkan yerləri kimi ilk insan icmaları tərəfindən seçilmişdir. Sonrakı mərhələdə bu ərazilərin bəzi hissələri öz yararlı təbii-iqliminə, müdafiə imkanlarına təsərrüfatın təşkilinə və yaxşı münbit torpağa malik olan şəhərlərin sıx formada ilkin planlaşma xarakterinə qorə daimi yaşayış yerləri kimi formalaşmışdır. Bu ərazilərin ayrı-ayrı hissələrində aparılan arxeoloji qazıntıların nəticələri, oradan tapılan məişət ev, bəzək, silah əşyaları, əmək alətləri və s., qədim məskan yerlərinin yanında tapılan qəbirsanlıqlar buna sübutdur. Qeyd etmək lazımdır ki, uçuntular nəticəsində yoxa çıxmış tikinti qurumları ilə yanaşı müxtəlif formalı, konstruktiv quruluşlu qəbirlərinin üzə çıxarılması nəticəsində məlum olur ki, bu dövrün sivilizasiyasında incəsənət irsi çox yüksək səviyyədə idi. Tapıntılar əsasən dəmir dövrünün I-ci və II-ci inkişaf mərhələlərinə aid olsa da, bu ərazilərdə dəmir dövrünə aid əşyalar, inşaat materialları, müxtəlif metal alətlərdə də aşkar edilmişdir. Tapıntıların yerləşmə prinsiplərinə əsasən məlum olmuşdur ki, Gilan bölgəsinin mənimsənməsi qeyri-müntəzəm şəkildə idi. Məsələn, dağlıq və dağətəyi zonalar lap qədimdən daha çox məskən yerləri olmuşdur, amma orta əsrlərin erkən mərhələlərində II-VI əsrlərdə formalaşan kiçik yaşayış məntəqələri ticarət əlaqələri genişləndirilməsi səbəbindən müdafiə olunan qurumlar kimi qapalı, kompakt plan-məkan strukturuəldə etmişlər. Lakin müxtəlif siyasi-iqtisadi münaqişələrlə bağlı onlar ilkin quruluşunu çox vaxt itirmiş, istehsal münasibət-

ləri təsirindən dəyişərək bu və ya digər məskən forması əldə etmişlər. Açıq məkanlı ərazilərə malik bu yerlərin dayanıqlı özək və istinad qurumlarının plan quruluşuna təsir edən struktur yaradıcı elementləri (giriş darvazaları, meydanlar, baş küçələr, bazar, dini mərkəzlər və s.) formalaşmışdır.

Belə məkan elementlərinin yerləşmə və əlagə prinsipləri əsasında qala forması alan yaşayış məntəqələri tədricən: dairəvi, torvari, parçalanmış və nizamlı struktur kimi yeni obrazlar əldə etmişlər. Ərazilərin yaşayış və təsərrüfat məqsədləri üçün mənimsənilməsi əsasən üç aşağıdakı mövqe əsasında formalaşmışdır: coğrafi mövqeyi daha güclü olan düzənlikdə təşkil edilən “şəhər məskunlaşma” forması, “kənd məskunlaşması” və sahil magistralları boyu formalaşan zolaqlı məskunlaşma. Bunların arasında lokal qruplaşma forması, məkan baxımından pərakəndə yerləşən kiçik yaşayış məntəqələri toplumu təşkil etsə də, düzənlikdə formalaşan şəhər məskunlaşma sisteminə daha çox üstünlük verilirdi, cünki orada yaşayış (məişət), istehsal (əmək), fəaliyyət növləri kimi ortaq məkanda və birgə həyat tərzi yaradır. Ərazidə torpaq istifadəsini bir mülkiyyət kimi qiymətləndirərək, mövcud məskunlaşma sisteminin formalaşmasında qədim və İslamdan əvvəlki və islam dövrünün cicəklənən mərhələləri – orta əsrlərin 5 mərhələni qeyd etmək olar (1. qədim və islamdan əvvəl ki dövrü, 2. İslam dövrünün ciçək lənən mərhələri 3. Qacar dövrü 4. Pəhləvi dövrü və İslam inqilabindan sonrakı dövr ). Bunların hər biri Gilan məskunlaşma sistemində öz izini qoymuşdur.

**1.2. Gilanın məskunlaşma xarakterinin formalaşmasında amillərin rolu.** Bu bölgədə gədim zamanlarda özünü göstərən, sonralar isə subyektiv və obyektiv səbəblərlə bağlı inkişaf edən və ya tənzzülə uğrayan məskunlaşma sisteminin bu günki formasına səbəb olan amillərin təsir dairəsi müəyyən edilir. Məlum olur ki, Gilan bölgəsinin coğrafi xaritəsində onun landşaft fərqliliyi, daimi məskən yeri kimi mənimsənilməsi, istifadə dərəcəsi zaman-zaman dəyişmiş və təbii komponentlərin (iqlim, su, meşəlik, düzənlik, dağlıq və s.) təsiri altında yerli xüsusiyyəti qeyri müntəzəm formaləşmişdir . Buna



**Gilan vilayətinin təbii bölgələri**



**Yaşayış məskənləri quruluşunun müxtəlif formaları**

| Məskunlaşmış ərazilərin quruluşvəforması | Xüsusiyyət | Görünən |
|---|---|---|
| Pərakəndəlik modeli | təsadüfi şəkildə yaranır və onun formalaşması üçün heç bir düşünmə- daşınma həyata keçirilməmişdir. Nəticədə isə dar və əyri küçələr meydana çıxmışdır |  |
| Şüa modeli | şəhərin ümumi və mü- hüm mərkəzləri onun mərkəzi hissəsində, yaşayış massivləri isə halqavari şəkildə hə- min mərkəzi hissənin ətrafında yerləşmişdir. |  |
| Şahmatvari modeli | nizamlı və kvadrat şə- kildə və səliqə-sah- manla bina bloklarına malikdir |  |
| ər küçəsi və uzununa olan model | əsasən hamar yerlərdə salınır orada yaşayış massivləri və şəhər bi- naları əsas əlaqə xətti üzrə və ya digər bir təbii amilin, cümlədən çay kimi təbii amilin ətrafında salınır |  |



sübut: qədimdə torpaqların mənimsənilmə xarakteri, funksional təyinatı, arxeoloji qazıntılar zamanı üzə çıxmış məişət silah əşyaları, divar qırıntiları, qəbir formalarıdi . Məlum olur ki, məhz bunlara görə insan daimi yaşayış yeri kimi ən yararlı, ilk növbədə - yaxşı qorunan, təsərrüfat təşkilinə yararlı olan sahələri tutaraq yeni struktur quruluşları yaratmişdır. Zaman kəsimində cəmiyyətin siyasi-iqtisadi (istehsal qüvvələri) səviyyəsinin dəyişməsi səbəbindən, seçdikləri davamiyyətli yerləri, qala divarları ilə əhatə edir və məkan təşkilində tədricən öz baş struktur elemenlərini formalaşdiridi ( giriş – çıxış dar-vazalar, meydanlar, baş küçə- bazar, karvansara, xanəgah, igamətgah ansamblı) və s.. Məhz bunların əlagələndirilməsi və calanması nə-ticəsində yaşayış məntəqələri öz strukturunu, plan quruluşunu müəy-yənləşdirirdi. Gilanın ümumi ərazi bölgüsündə isə məskunlaşmanın müəyyən sistem forma alması təbii ki, bölgədə olan xarici əla-qələrin (karvansara yolları), suyun, münbüt torpaqlarin, müdafiə, landşaft və digər ünsürlərdən təsirilənərək dağınıq, kompakt, xətti və qarışıq quruluş əldə edirdir.

Belə ki, istehsal yerləri yaşayışa yaxınlaşdıqca, onların yaşayışla təmas etmə xarakteri də dəyişir və yaşayış məntəqələrı məskunlaşma sistemi daxilində əsas maddi qurumlar kimi formalaşırdı. İlkin “açıq məkan” formasına malik olan < komalaşma > qrurumları ərazi və funksiya fəaliyyəti baxımından mürəkkəbləşdikcə, daxili struktur birliyində və fəaliyyətlərinin birgə getməsi prosesində tədricən kiçiklərin onlar qapalı struktur alırdı. Şərq ölkələri nümunəsində, o cümlədən də İranın Gilan bölgəsində əraziyə səpələnmiş həcm-mə-kan quruluşlu kiçik struktur elementlər daha çox yerli idarəetmə əsasında özünun müdafiə funksiyasını inkişaf etdirirdi.

Beləliklə də iqtisadi amillər təbii amillərlə rəqabətə girərək, vəh-dəd bir prosesi təmin edirdi. Bir sıra hallarda birinin- üstünlüyü sıx məskunlaşma formasına səbəb olur, digər hallarda təsərrüfat başlıca amil kimi, həm yaşayış məntəqələrinin, həmdə onların orbit ətrafla-rında dominant amil rolunu daşıyırdi . Bununlada məntəqələrin profi-li təyin edilir, regional səviyyəli əlagələr isə magistrallar hesabına

məskunlaşma sistemində öz qanunlarını yeridirdi .Bu zaman, sosial amil ikinci dərəcədən birincilər sırasına çıxarq, məskunlaşma sistemini təkminləşdirir  və əhalinin tələbləriin, onun istəklərinin ödənilməsinin aparıcı faktora çevrililməsindən irəli gəirdi.

**1.3 Xarici ölkə təcrübəsində məskunlaşma quruluşunun təhlili.** İranın və digər ölkələrin alim və mütəxəssisləri məskunlaçma sisteminin təşkili haqqında öz nəzəri ideyalarında məskunlaşma strukturu təşkilinə mülahizələr irəli sürür. Onlardan Məhəmməd və Təla Minoyidən, Rizvani Hichers, Əzini və b. tədqiqatlarında məskunlaşma ideyasının əsasında yalnız iri tutumlu sistem təşkil edən məskunlaşma, mürəkkəb tərkibdə öz funksiyasını yerinə yetirə bilər. Bu məskunlaşma fazasının idarəçiliyi onun  quruluşuna medaxilə edir və müəyyən bir yaşayış məntəqəsinin planlaşmasında öz ardını davam etdirir. Digər alimlər təkid edir ki, məskunlaşma orta fəaliyyət olsa da, ancaq müəyyən ərazilərdə yaşayan cəmiyyətin istək və tələbatları əsasında müəyyənləşir və mütləq bu məsələnin həllinin əsasında sistemli təşkil oturmalıdır ki,  o vahid bir kompleks kimi qavranılsın. Onu da qeyd edək ki, Avropa ölkələri təcrübəsində mövcud olan urbanizasiya prosesi orta əsrlərdə oxşar olsa da. sonrakı mərhələdə məskunlaşma sistemini formalaşdıran komponentlərə fərqli dəyər verilir. Məsələn, hesan edilir ki, sosial-iqtisadi məsələlər sistem təşkilində öndə durmalıdır, cünki onlar ən önəmli amildir, onları cavablandırmaq daha realdır. Əslində isə, bu proses boyu həll ediləcək məsələlərdir və bütün səviyyələrdə torpaq mülkiyyətinin dəyərləndirilməsindən sonra həll edilə bilər.

Məskunlaşma sisteminin həllində bir məkanın yaradılması müşkil işdir. Hesab edirik ki, bu ancaq yaşayış məntəqələrinin öz planməkan quruluşunda yerinə yetirilə bilər, cünki, şəhər mühitinin cazibədarlığı konkret amillərin təsirindən yaranır və vizual olaraq məkan təşkili prinsiplərinə söykənir. Lakin, təşkil prinsip müxtəlif alimlər tərəfindən reaksiya, bağlılıq, uğurluluq, şəhər strukturunda yaradıcılır, torpaq istifadəsində məhdudiyyət və s. bu kimi prinsiplərə əsasən dəyərləndirilə bilər. Hesab edilir ki, şəhər daxilində ən güclü



**Məkan formalaşma nəzəriyyələri**

















**Gilan vilayətinin xəritəsi müxtəlif dövrədə**


Map of RASHT - 1287


Map of GILAN - 1808



Map of GILAN - 1736


Map of LAHIJAN - 1154(Edrissi)



mahiytyətə malik olan şəhər mühitinin özünü bərpa etmə qabiliyyətidir ki, bu prinsip struktur rekonstruksiyasının ısasını təşkil edir. Kiçik miqyasda buna renovasiya prosesi də demək olar. Bu ideyadan fərqli dahi bir ideya var ki, onu Taffer adlı bir alim təqdim edir. Onun fikrincə, məskunlaşma sisteminin təşkili sahillərin fırtına vaxtı transformasiya formasını xatırladır ki, onları”Zəbt edən” dalğalar bu şəraiti yarada bilər. Məskunlaşmaya bu yanaşmanı tətbiq etsək görərik ki, burada ən güclü dalğa birincisidir. Buna ərazinin istifadəsi və nəticədə əldə edilən təsuratdir. İkinci məskunlaşma sistemi təşkilində orada cəryan edən fəaliyyətin fəal işlənməsidir. Buna ikinci “dalğa” demək olar, yəni sistem daxilində artıq onun elementlərinin- yaşayış məntəqələrinin həcm-məkan strukturları (baş küçə, meydan, iqamətgah, bazar və s.) inkişaf edir. Üçüncü dalğa – vilayət sistemi daxilində məskunlaşma prosesini işlədən, yəni fəaliyyətinin genişliyini təmin edən, informasiya dalğasıdır ki, o həm sosial, həm də iqtisadi məsələlər həllində yaxın gələcəkdə öndə duracaq. Digər tərəfdən, şəhər strukturunun təşkilindən məskunlaşma sisteminin bu prosesə müdaxilə etməsi cari memarlıq planlaşma məsələləri həllində dinamik dəyişilmə qabiliyyəti; daxili proseslərin tənzimlənməsi qabiliyyəti; coğrafi informasiya sisteminə qoşulması qabiliyyəti kimi müxtəlif təşkilatçılıq qabiliyyətləri nümayiş etdirir. Qeyd etmək lazımdır ki, ideyalar fərqli olsa da, onların praktiki əhəmiyyəti daha yüksəkdir. 1. Van Tunen – kənd təsərrüfatının məskunlaşma təşkilində aparıcı rolu haqqında (1826); 2. Alfred Veberin – məskunlaşma prosesində sənaye məkanları təçkili haqqında nəzəriyyəsi (1909); 3. Kind (1984), Hagget (1996), A.Valter Kristalerinin (1933), Oqust Juşun (1940) məskunlaşma sistemində mərkəzi məkan təşkili nəzəriyyələri mövcuddur. Bu nəzəriyyələrin əsaslandırılması üçün bir neçə quruluş modelləri, o cümlədən: Homer Hoytun – sektorlu quruluş modeli, Harris və Ullmanın – multinüvəli quruluş modeli (1945), Peter Manın – tərkib mödeli, Kudvalladerin – mozaika quruluş modeli (1994) və s. təqdim edilmişdir. Bu onu təsdiq edir ki, tədqiqat mövzunun əhatə dairəsi həddindən artıq genişdir və həyata keçirilməsi bir neçə dəfə

reallaşdırılan Gilan bölgəsinə tətbiq edilə biləcək bir neçə sxematik modellərdə müqaisə edilmişdir.

**"Gilan bölgəsində formalaşmiş məskunlaşma sisteminin analitik təhlili"** adlı II fəsildə Gilan vilayətində formalaşmış məskunlaşma sisteminin mövcud quruluş tipləri araşdırılır**,** şəhər aqlomerasiyasının məskunlaşmasının plan-məkan təhlili aparılır və məskunlaşma sisteminin tənzimləşməsində ortaq kommunikasiya məkan mərkəzləri analiz ediıir.

**2.1.Gilan vilayətində formalaşmış məskunlaşma sisteminin quruluş tipləri.** Bölgədə vilayət statusu almış İranın şimal bölgəsinin mövcüd məskunlaşma sisteminin quruluş xüsusiyyəti təhlil edilir və məlum olur ki, Gilan bölgəsi sıx məskunlaşma (1 km2 ≈ 177 nəfər duşur) iri ərazili olaraq 31 əyalət arasında, ölkə ərazisinin 9% təşkil edir. Onun kifayyət qədər əsaslıolan iqtisadi potensialı, coğrafi mövqeyi - strateji olduğundan fəaliyyət dairəsi də genişdir. Tərkibində 49 şəhər, 16 rayon, 109 kənd və digər çoxsaylı kiçik yaşayış məntəqələrinin səpələnmiş məskunlaşma sistemi olması onu qonşu məskan sistemlərdən ayırır. Tarixi təhlil göstərir ki, zaman baxımında gilanin strukturu aşağıdakı iki tip qurumlarin qruplaşmasından əmələ gəlmişdir: 1. kiçik, mobil yaşayış məntəqələri kimi əraziyə səpələnmiş və ilkin tamamlanmış struktur tapan qrumlar 2. davamlı istifadəli məskan yerləri . Sonrakı tarixi inkişafda bəzi səbəblərdən özlərinə layiqli yer tutan və yerli şəhər quruluşunu əks etdirən kəndyaşayış məntəqələri isə bu bölgədə sayca daha çoxdur. Qeyd etmək lazımdır ki, vilayətin bölgələri landşaft, təbii-iqlim şəraiti və digər faktorlar təsirindən struktur baxımından da bir – birindən fərqlənir, lakin ümumi kənd təsərrüfat istehsalı onları lokal qurumlar kimi qəbul etməyə vadar edir. Məsələn, dəniz sahili boyu – xətti zolaqlı strukturlu mikro-məskunlaşma sistemi, dağlıq zonalarda – plan quruluşu baxımdan lokal, lakin ətrafa açıq struktur, düzənlik ərazilərdə su və meşə qıtlığı, isti iqlim şəraitlərində çox uyğunlaşmış mikroməskan sistemi və s. Bunlardan başqa dağ və düzənlik sahələr arasında (dağətəyi) bir çox subyektiv və obyektiv səbəblərdən şəhərarası boyu



**Gilan bölgəsinin yerləşməsi**






## ALİ ALİKHAH

## DEVELOPMENT OF SPATIAL STRUCTURE OF HABITATION SYSTEM IN GILAN PROVINCE

Purpose of research is to learn existing residing character of Gilan, to process a new capacity-area providing innovation of cities, villages, residential areas and improving plan-area structure according to modern standards in the background of its economic, urban planning and ecology concept.

In I chapter named "Existing area-structure and development of population system of Gilan area", mastering of areas in Gilan, Iran is researched as first populated areas through years, role of factors in formation of population character in Gilan is investigated, analysis is made on population structure in foreign country experience.

In II chapter named "Analyses of population system emerged in Gilan", existing types of structure of population system emerged in Gilan is researched, plan-area analysis of city aglomeration population is made and joint communication centers are analyzed to regulate the population system. Also, area-planning structure of residential areas is conducted in Gilan, population development is shown in surroundings of rural areas and role of local control is shown to regulate population structure in the area.

In III chapter named "Innovation roads of plan-area structure of contemporary population system in Gilan" complex appreciation of development opportunities specified for Gilan is made, transformative change principle of population system of the area is reviewed, architectureal-planning models are offered for area-structural elements in population system province of Gilan. In this chapter, according to fourth social development program of Iran, which is mainly involved in construction, methods of improvement are also researched in Gilan.



magistrallar üzərində yaranan məkan-kommunikasiya mərkəzlərinin funksiyasını daşıyan kiçik məntəqələr toplumu ümumi regional sistemdə bir zəncirvari bağlantıları təşkil edən məskunlaşma tipi formalaşdırır. Gilan vilayətinin mərkəzi bölgələrində formalaşmış şəhər qrupları plan-məkan baxımından daha müfəssəldir və xidmət sistemləri (nəqliyyat, yaşıllaşdırma, içtimai xidmət və sş) daha yüksək təşkil edir (Rəşdi Mazandaran və s.). Bu səbəbdən bu zonanın məskunlaşma sisteminin mahiyyəti də daha yüksəkdir.

Bölmənin nəticəsi kimi dissertasiya işində dörd məkan-plan quruluşu olan mikrosistem təhlil edilmişdir (1. Assaən şəhəryığımından yaranan məskunlaşma sistemi 2. Kənd məskunlaşma sistemi 3.Xətti Struktur alan məskunlaşma sistemi və 4. Lokal- mikro məskunlaşma sistemi . Bunlarin struktur tipləri göstərilir və sonrakı bölmələrdə onların həcm-məkan komponentlərinin xüsusiyyəti və qarşılıqlı fəaliyyətləri açıqlanır.

**2.2. Şəhər aqlomerasiyasının məskunlaşmasının plan-məkan təhlili.** Bu sistem Gilanın düzənlik landşaft xüsusiyyətindən və vilayətdə hakim mövge tutan regional magistralların calanmasından irəli gələn iri və orta şəhər qurumları fəal formada fəaliyyət göstərən parçalanmış məskunlaşma xarakteri yaratmışdır. Qeyd etmək lazimdir ki, bu sistem vilayətin əsas sosial-iqtisadi problemlərin həlli baxımından daha səmərəlidir.

Belə ki, güclü istehsal qüvvələrinə malik olan bu ərazi sistemi həm də tarixi özəlliklərlə və memarlıq abidələri ilə zəngindir. Mədəni irsini qoruyub saxlayan bu şəhərlər muasir potensial imkanları hesabına vilayətdə ən inkişafda olan məskunlaşma sistemi təşkil edir. Digər tərəfdən bu bölgə Gilan ərazilərinin üçdə-bir gissəsini əhatə etməklə, daxilində olan şəhərlərin davamiyyətli fəaliyyətini təmin edir. Təhlil nəticəsində bu sistemin üç aşağıdakı vacib urbanizasiya mahiyyətinə malik olan şəhər qrupları müəyyən edilmişdir: 1. Landşaft xüsusiyyətlərindən irəli gələn plan-məkan quruluşu tapan şəhərlər; 2. Sahil boyu formalaşmış və funksional zonalaşma xarakterinə və qədim plan-məkan quruluşa meyli olan xətti strukturlu şəhərlər; 3.

Regional səviyəli baş magistrallar kəsişməsində bərqərar tapan və bir qismi dairəvi, bir qismi isə şuavi struktura meyl göstərən şəhərlər qrupu.

Bölmədə vilayət daxilində ön xarakterik quruluşlu şəhərlərin şəhərsalma mahiyyəti açıqlanmış və məskunlaşma sistemində yeri təyin edilmişdir. Bu şəhərlərin ümumi inkişaf səviyyəsi Dövlət Proqramının sosial-iqtisadi inkişafa müvafiq təyin edilsə də, reallıqda uzunmüddətli proqnoz göstəriciləri əvəzinə bu xarakterik məskunlaşma sisteminin yerli potensial həcminə, bu sistemdə olan əhali arası miqrasiya prosesi və yerli sənaye profillərindən təsirlənən bölgə öz daxili imkanlarına müvafiq təşkil olunmalıdır. Əslində, nəzərdə tutulan inkişaf dəyişiklikləri daha çox şəhərlərin plan-məkan sərhədlərində müdaxilə formasında deyil, daha düşünülmüş bölgə üçün rasional sayılan rekonstruksiya və renovasiya tədbirləri formasında təklif olunmalıdır. Buna uyğun şəhərlərin yaşayış tikintiləri ilə bərabər eyni kompleks həllində onların xidmət, nəqliyyat və abadlaşdırma sistemləri də müəyyən transformasiya olunmalıdır.

“Şəhər məskunlaşması” sistemində aparıcı rol oynayan qarışıq, xətti, kompakt, parçalanmış, dairəvi-şuavı və şahmat planlaşma strukturuna malik qarişıq struktur formalaşmışdır ki, bu struktur öz təsirini tərkibinə daxil olan şəhərlər sərhədlərində də əks edir: Bunların arasında “Rəşt şəhəri” vilayət mərkəzi kimi böyük inkişaf tapdığından, yerli sənaye-istehsal zonası üstünlüyündə - xətti zolaqlı və kənar ərazilərində - şahmat quruluşunu təsdiqləmişdir. Bu üzdən Bəndərəzəli şəhərinin Xəzərə çıxan hissəsinin strukturu, yeni salınmış ərazilərində isə - şahmat planlaşması özünü göstərir. Lahican şəhərinini mərkəzi rayonlarında dayrəvi - şuavı, kənar hissələrdə isə - xətti və pərəkəndə planlaşma quruluşu üstünlük təşkil edir. Şəngərud şəhəri Gilanın düzənlik ərazilərində formalaşsa da, yerli məhdudiyyətlərin təsirindən burada pərəkəndə plan quruluşu tədricən şuaviyə keçir. Astara şəhəri üçün dağınıq və xətti struktur xasdır. Sumesəra şəhərinin dağətəyi şəraitində pərakəndə və şuavi plan strukturu üstünlük təşkil edir. Astane-yi-Əşrəfiyyədə şəhərində - pərakəndə və



**АЛИ АЛИХАХ**

## ПРЕОБРАЗОВАНИЕ ПРОСТРАНСТВЕННОЙ СТРУКТУРЫ СИСТЕМЫ РАССЕЛЕНИЯ ОБЛАСТИ ГИЛАН

**Основная цель** данной научной работы является исследование существующего характера системы расселения области Гилан, в соотвествие с современными требованиями на фоне экономической, градостроительной и экологической сущности преобразования ее пространственно-планировочной структуры и разработка объемно - пространственных моделей, обеспечивающих обновление ее таких главных элементов как город, село, населенный пункт.

**В главе I – «Особенности и развитие существующей пространственой структуры области Гилан»** исследуется освоение территории как первичные историчеких мест расселения в области, рассматривается роль факторов в формировании характера расселения области Гилан и анализируется структура расселения в зарубежных странах.

**В главе II – «Аналитический анализ фомирования системы расселения»** рассматриваются типы фомирования структуры системы расселения области Гилан, дается пространственно-планировочный анализ расселения городской агломеорации области и исследуется общий коммуникационно-пространственный центр в регулировании системы расселения. Здесь так же дается анализ пространственно-планировочной структуры населенных пунктов в области Гилян, развития жилой системы вокруг сельских местностей, роль местного контроля в урегулировании жилищной структуры в области.

**В главе III – «Пути преобразования пространстивенно-планировочной структуры современной системы расселения Гилан»** проводится комплексная оценка пространстивенно-планировочного развития городов области Гилян, рассматривается принцип трансформативного изменения системы расселения области, предлагаются архитектурно-планировочные модели пространственно-структурных элементов системы расселения области Гилан. Здесь так же рассмотриваются пути переобразования области Гилян в связи с четвертой программой социально-экономического развития Ирана, где строительству было уделено особое внимание.

## DİSSERTASİYA MÖVZUSU ÜZRƏ DƏRC OLUNAN ƏSAS ELMİ İŞLƏR:

1. The development of habilation system structure in Gilan Province. European Journal, № 123,Tehran 2014.

2. Thought to action //Architecture, № 17, 18. ,Tehran2013.

3. İranın müxtəlif regionlarında ərazilərin məkan baxımından struktur quruluşuna təsir edən amillərin araşdırılması. Urbanizm jurnalı № 16.Bakı 2011.

3. Gilan ostanında yaşayış məntəqələrinin formalaşmasının təsirli aməlləri. Urbanizm jurnalı № 16.Bakı 2011.

4. İranda Pəhləvilərin dövründə aparılmış torpaq islahatlarından əvvəl və sonrakı torpaq mülkiyyəti .Elmi əsərləri № 1, AzMİU, Bakı 2010.

5. Gilan ostanında müxtəlif məskun quruluşların modelləıri. Urbanizm jurnalı № 15. Bakı 2010 .

6. Kənd əraziləri və orada məskunlaşmış cəmiyyətin bölüşdürülməsi və sıxlığına təsir edən amillər.Urbanizm jurnalı № 15. Bakı, 2010.

7. Расселение населения на иранском побережье касспийского моря и особенности развития планировочной структуры. Каспийский регион экономика, культура № 1. г.Астрахань. 2009.



nisbətən xətti, Rudsərdə - şahmat və xətti struktur, Fuməninin mərkəzi zonalarında – pərakəndə, kənar hissələrində isə – şuavi və şahmat strukturu formalaşmışdır.

**2.3 Kənd təsərrüfatı rayonlarının məskunlaşma planlaşmasının struktur-məkan xüsusiyyəti.** Bu bölmədə Cilanın bütün ərazilərinə səpələnmiş kənd məntəqələri toplumu bir neçə mikro-məskunlaşma qrupları təklif edilir. Yerləşmə prinsipindən irəli gələrək, onlar müxtəlif məskunlaşma quruluşu əldə etmişdir. Bəzi hissələrdə onlar siravi nizamlı struktur, mərkəzi ərazilərə yaxın-yığcam, cənub və cənub-qərbə tərəf kənd mikro-məskunlaşma qrupları – dağınıq struktur nümaiş etdirir. Bölmə üzrə təhlillərin nəticələrinə əsasən dəniz və çay sahillərinə çıxan yaşayış məntəqələrində xətti plan quruluşu üstünlük təşkil edir, nisbətən dağlıq hissələrdə - mərkəzi meydanı ətraflayan – qurşaq strukturu yerli landşaft xüsusiyyətinə uyğun formalaşmışdır. Bu səbəbdən dağətəyi zonalarda toplum qrupları – dağınıq strukturla yanaşı, həmdə pilləva struktur nümayiş etdirir. Yuxarıdakılardan belə nəticə çıxartmaq olar ki, < kənd məskunlaşma > sisteminin daxilində olan kiçik yaşayış məntəqələrində qarışıq struktur müşaidə edilirsə, kəndlərin ozləri uçun isə - daha çox mono-funksional struktur quruluşu müvafiq sailir .

**2.4 Məskunlaşma sistemi tənzimləşməsində ortaq kommunikasiya məkanı mərkəzlərinin analizi.** Gilan vilayəti ərazilərində şəhərarası sahələrdə bir çox cəhətdən özünü təsdiqləmiş və məkan kommunikasiyalar mərkəzləri kimi fəaliyyət göstərən lokal yaşayış – istehsal qrupları var ki, onlar ortaq funksional təyinatları səbəbindən (yaşayış, istehsal, xidmət, nəqliyyat) yerli idarəetmə xüsusiyyət almaraq, aralıq ərazilərə kontrolluq edir. Bu mərkəzlərin ümumi bir sistem kimi işləməsini təmin edən onların vilayət daxilində şəbəkə təşkil edən xarici əlaqələr yollarıdır. Öz yerləşmə mövqeyi prinsipinə əsasən zolaqlı plan quruluşu almaqla yanaşı, ortaq məkan kommunikasiya mərkəzləri kimi şəhərlər arası əlaqəlik funksiyalarını öz üzərinə götürərək, ümumi regional məskunlaşma sistemi daxilində tənzimləyici qruplar kimi çıxış edir və çox vaxt vilayət ərazilərinin maddi

qurumları (istifadə baxımından) ikinci dərəcəli struktur vahidləri kimi özlərinə bəraət qazandırır. Məhz belə qurumlar hesabına Gilanın ərazilərində mövcud olan kənd təsərrüfatı torpaqlarının mülkiyyətini məhdudlaşdıran əlaqə yaradıcı rol oynayan məntəqə-mərkəzlər bir çox cəhətdən məskunlaşma sisteminin təkmilləşdirilməsində ikinci dərəcəli olsa da, özünə məxsus yerli idarəetmə rolu daşıyır. Bunlar daha çox Gilanın mərkəzi bölgələri sahələrində, sahil boyu yerləşən yaşayış məntəqələrinin əlaqələndirilməsində vacib rol oynayır. İri avtomaqistral kənarlarına çıxardılan bu qurumlar müəyyən sahədə maqistralın hər iki tərəfinə paylaşan xətti parçalanmış struktur quruluşu alsalar da, məkan kommunikasiyaların bütün komponentlərini həm təşkil, həm də funksional (yaşayış, istehsal, xidmət, nəqliyyat, coğrafi informasiya) baxımdan səmərəlidir.

**"Gilanın müasir məskunlaşma sisteminin plan-məkan quruluşunun təkmilləşdirmə yolları"** adlı III fəsildə Gilan bölgəsinin nəzərdə tutulan inkişaf imkanlarının kompleks qiymətləndirilməsi aparılır, bölgənin məskunlaşma sisteminin transformativ dəyişikliklər prinsipinə baxılır, Gilan vilayətinin məskunlaşma sistemində məkan-struktur elementlərinin memarlıq-planlaşma modelləri təklif edilir.

**3.1. Gilan bölgəsinin nəzərdə tutulan inkişaf imkanlarının kompleks qiymətləndirilməsi**. Bölmədə əsasən İranın dördüncü Dövlət inkişaf proqramının yaşayış quruluşunun dəyişikliklərinə aid təklifləri araşdırılır, ətraf mühitin qorununması və torpağın istifadə məsələlərinin həlli yolları göstərilir, məskən təşkilinin aparıcı amili kimi ilk növbədə torpaqlarının istifadəsi əsas götürülür. Bu məqsədlərə xidmət edən ərazilərin təhlükəsizlik və müdafiəsi, ərazidən iqtisadi yararlanma imkanları, rasional balansı saxlamaq məqsədi, torpaq bölgüsünün düzgün aparılması və təbii sərvətlərin səmərəli istifadəsi, iqtisadiyyatın daxili və xarici əlaqə imkanlarının genişləndirilməsi məsələləri nəzərdə tutulan perspektiv dəyişikliklərin siyahısına salınaraq, qiymətləndirilir.

Belə ki, Gilan bölgəsində iri miqyaslı və çoxfunksiyalı ciddi iqtisadi məsələlərin həlli mürəkkəbliyi bir sıra problemlər yaradır. Bu



zilərində bir neçə (iri şəhərlər ətrafında orbit mövqeyi tutan sistem, sahilyanı və dağlıq yerlərdə dağınıq struktur alan mikrosistem) mövqe tutur.

7. Gilan bölgəsində öz iqtisadi, nəqliyuyat, xidmət və məkan istifadəsi baxımdan kommunikasiya xarakteri və həcmi- funksional fəaliyyəti üçün bütün zəminlər var. Bunların zolaqlı məskunlaşma xarakteri və həcmi funksional tərkibi region daxilində şəhərarası məkanların urbanizasiya resurslarının rasional təşkili etməyə əsas – tranzit məkanların mənimsənilməsidir. Bu belə məkanlar təşkilində dinamik istifadə və mobil təşkilat formasına səbəb olur.

8. Gilan bölgəsində nəzərdə tutulan sosial-iqtisadi dəyişikliklərin ancaq kompleks dəyərləndirməsi nəticələrindən irəli gələrək təsiredici statusuna görə müxtəlif olan hər bir faktor təyin edilə bilər. Lakin kompleks qiymətləndirilmə zamanı hər faktorun təsirinə digərinin fonunda, qarşılıqlı təsirdə baxıldığında onların dəyəri yüksəkdir.

9. Bölgənin müsbət istiqamətdə nəzərdə tutulan pozitiv dəyişiklik prosesləri həm regional səviyədə, mikro regional-bölgələr tərkibindəki yaşayış məntəqələri təşkilində və əlbətdə ki şəhər və kəndlərin öz plan-məkan baxımdan inkişafına yönəldilmiş transformasiyalar həcm-məkan xarakteri daşıyır.

10. Gilan bölgəsinin məskunlaşma sisteminin məkan struktur baxımdan təkmilləşdirmə tədbirləri sisteminin baş elementləri olan şəhərlərin memarlıq-planlaşma quruluşlarının yeniləşməsi yolunda müxtəlif təyinatlı modellər təklif olunmuşdur.

## YEKUN NƏTİCƏ

Aparılan kompleks tədqiqatların sonunda dissertasiyada aşağıdakı əsas nəticələr çıxarılmış və təkliflər irələ sürülmüşdür:

1.Gialn bölgəsi qədim tarixə malik olan məskunlaşma mərkəzini müxtəlif formada formalaşdırmışdır.

2. Gilan ərazilərinin öz təbii-iqlim şəraiti, coğrafi mövqeyi, sosial-demoqrafik xüsusiyyəti və iqtisadi potensialı baxımdan İranın 31-ci əyalətləri arasında ən iri əraziyə malik bölgə olaraq amil toplumu təsirindən müəyyən məskunlaşma yönümü almışdır.

3. Təyin edilmişdir ki, Gilan məskunlaşma sisteminin formalaşması səbəblərinin və istifadə formalarının təhlili İran alimləri tərəfindən araşdırıldığı halda, digər ölkələrinin də mütəxəssisləri bu problemin həlli yolunda bir neçə elmi ideyalar irəli sürmüşlər.

4.Vilayət çərçivəsində mövcud məskunlaşma sistemi tərkibində - dörd mikro-məskunlaşma sistemlərinin (şəhər məskunlaşması, kənd məskunlaşması sistemi, xətti-zolaqlı lokal məntəqələr yığımından formalaşan sistem, birgə-yerli idarəetmə əsasında fəaliyyət göstərən, şəhərləarası ərazilərə mkontrolluq edən – məkan kommunikasiyaları mərkəzlərindən yığılan məskunlaşma sistemi);

4. Vilayət çərçivəsində mövcud məskunlaşma sistemi tərkibində təhlili nəticəsində dörd mikro-məskunlaşma sistemi o jumlədən: şəhər məskunlaşması, kənd məskunlaşması sistemi, xətti-zolaqlı lokal məntəqələrdən formalaşan sistem, birgə-yerli idarəetmə əsasında fəaliyyət göstərən, şəhərləarası ərazilərə kontrolluq edən –məkan kommunikasiyaları mərkəzlərindən yığılan məskunlaşma sistemi üzə çıxmışdır;

5. Gilanın mərkəzi ərazilərinin mənimsənilməsinə xas olan şəhər məskunlaşma sisteminin funksional problemləri həllində əhalinin sosial və şəhərlərin iqtisadi-sənaye inkişafı əsasında formalaşan sistemində bir neçə struktur quruluşu (dağınıq, xətti, lokal, şahmat və s.) özünü göstərir.

6. Regional mahiyyətli kənd məskunlaşma sistemləri Gilan əra-



dəyişikliklər bölgənin sosial-iqtisadi dirçəlişinə yönəlsə də, xüsusi yanaşma tələb edir. Bu da həmin tədbirlərin məskunlaşma sistemi səviyyəsində yaşayış məntəqələrinin öz plan-məkan dəyişikliklərində mütləq yerli şəraitin şəhərsalma təcrübəsini, memarlıq-palnlaşma ənənələrini və əlbətdə ki, mövcud təbii-iqlim şəraitini nəzərə almalı və bunların qarşılıqlı təsirinin istifadəsinin "matrisa" təbəqəsi kimi cəmləyərək, ortaq bir dəyəri müəyyən olunmalıdır. Digər tərəfdən vilayətin demoqrafik göstəriciləri və əhalisinin miqrasiyasının fəal keçdiyi bir şəraitdə müşaidə olunan qeyri müntəzəm inkişaf bu dəyişikliklərdə nəzərə alınmalıdır. Bu da onu göstərir ki, dəyişikliklər yalnız ərazilərin yararlıq səviyyəsini əhatə etmir, o həm də müasir tələblər axınına (yəni sosial məsələləri həllinə)uyğun daha çox diqqət tələb edir.

Bölmədə ayrı-ayrılıqda Gilanın məkan təşkili, planlaşdırma quruluşu qiymətləndirilir, lakin torpaqların istifadə xarakteri onların fəaliyyəti baxımından tənzimlənməlidir, yəni hansı yaşayış məntəqəsinin daha çox sənaye istehsalına, aqrar-istehsal mərkəzləri, hansı isə daha çox elmi-mədəni və ya istirahət kimi funksiyalarının genişləndirilməsi ilə perspektiv inkişaf tapmalıdır. Bu dəyişikliklərlə bağlı vilayətin ümumi istiqamətləri (sosial-iqtisadi) inkişaf etməli, eyni zamanda onların birinə üstünlük verilməlidir. Kompleks qiymətləndirmə nəticəsində əldə edilən dəyişikliklər toplumu təbii ki, vilayətdə gedən transformasiyalarını da təyin edir.

**3.2. Bölgənin məskunlaşma sisteminin transformativ dəyişikliklər prinsipi.** Gilan bölgəsi üçün Dövlət Proqramında ayrılan sosial-iqtisadi inkişaf çərçivəsində onun daxili potensialları nəzərə alınaraq, plan-məkan strukturunda transformasiya əsasən həcmi tikinti sahəsinə aid edilməlidir, Bu da planlaşdırma quruluşunun tikintinin həcmindən, tikintilərin funksional və məkan mahiyyətinə əsasən yerləşdiyindən yaşayış məntəqələri aralarında olan transformatik dəyişikliklərin aparılması tələblərindən irəli gəlir. Bölmədə ilk növbədə vilayət miqyaslı yolların istiqaməti təyin olunur, sonra mühəndis kommunikasiya sistemlərinin, regionda istehsal və kənd təsərrüfatın

tarazlı istifadəsinə yönəldilməsi təklif edilir. Bu baxımdan ətraf mühitin qorunması, yəni ərazinin ekoloji vəziyyəti, bəzi coğrafi landşaft sahələrinin, yaşıllaşdırmanın genişləndirilməsi əsas transformasiya sahələri ola bilər.

Lakin, dayanaqlı fəaliyyət prosesi sistemindən əlavə, şəhər və kəndlərin yeniləşmə məsələləri əhatə edilməlidir. Məsələn, memarlıq-planlaşma tikintilərinə təkan verən əhalinin yaşayışına olan talabatının dəyişməsi, yəni transformasiyası həm də şəhər və kənd məhəllələrinin quruluşunda öz əksini tapmalıdır. Lakin, son zamanlar müşahidə olunan yaşayış məhəllələrinin irilənməsi heç də müsbət hal deyil, cünki fərdi həyat tərzinin tələblərindən irəli gələn az mərtəbəli tikintilər ilə bu proses üzlaşa bilməz. Vilayətin kənd məskunlaşma sistemi dairəsində kiçik yaşayış məntəqələrinin daxili struktur yeniləşməsində daha çox vacib sayılan onların kənarında yaşayışa paralel yeni, istehsal-aqrar mərkəzlərinin yaradılmasıdır. Bu öz yerində onların plan-strukturlarını dəyişərək, həcm və məkan transformasiyasına səbəb olacaq. Daha iri tutumlu (əhali, ərazi və s.) şəhərlərin transformatik dəyişikliklər tədbirləri daha çox onların daxili struktur quruluşunda özünü göstərə bilər. Məsələn, mühitin yaxşılaşdırılması məqsədi ilə onların sərhədlərində landşaft ehtiyatlarına istinad edərək, təkminləşdirilməsi üçün bir sıra transformatik tədbirlər aparılmalıdır. Şəhərlərin kompozisiya quruluşu onların istehsal və xarici əlaqələr istiqamətində dəyişdirilə bilər, həcm-məkan tikintilərinin memarlıq formalarının təkmilləşdirilməsi məqsədi ilə yeni konstruktiv quruluşda texnologiya imkanlarından istifadə edilməlidir. Bölmədə vilayət və mikromühit şəraitində komponentlərin üzə çıxarılmasına mənəvi dəstək olan "intelektual potensial" yəni "xüsusi potensial" imkanları tədqiq olunur.

**3.3. Gilan vilayətinin məskunlaşma sistemində məkan-struktur elementlərinin memarlıq-planlaşma modellərinin təklifi.** Bu bölmədə regionun struktur yaradıcı elementləri kimi çıxış edən şəhər və kənd məntəqələrinin yeniləşməsi yolunda təklif olunan modellər, onları öz planları sərhədlərinin xarici və daxili əlagəliyi hesabına əhalinin bütün fəaliyyət növlərinin tələbatlarına cavab verə bilən sosial-iqtisadi irəlləyişi özlərində sxematik də olsa əks etdirə bilər. Məsələn, iri şəhərin baş planının transformasiyasında əsas nəqliyyat, xidmət və yaşıllaşdırma sistemlərinin komponentlərinin funksional zonalaşması bölgüsünü saxlanıldığı halda, düzgün struktur elementlərinin yerləşdirilməsi ən əsas şərt sayılır. Ikinci əsas məsələ, model quruluşunda vacib sayılan dinamik inkişafın tarixi özək sahələrində, yeni massivlərinin ətraf mühitlə əlagəliyində özünü göstərən yaşayış quruluşlarının şəhər daxilində içtimai mərkəzlərinin vahid bir sistemdə calanma xarakterindən ibarətdir. Kənd məskunlaşma sisteminin baş elementləri – lokal ərazi, yerli status almış yaşayış məntəqələrinin model quruluşun dairəvi – şüavi strukturda məhəllə arası xidmət, meydan və vahid park massividir. Burada ziyanlıq dərəcəsi zəif olan yerli istehsal v mərkəzləri digər kommunikasiya elementləri ilə məkan birliyi təşkil edə bilər. Gilanın məskunlaşma sisteminin təkmilləşdirilməsi yaşayış məntəqələrinin tarixi mahiyyəti ilə yaşayış ətraf ərazilərinin müasir sosial-istehsal tələbləri çərçivəsində aparılmalıdır. Şəhərlərin yeniləşmə prosesinin başlanğıcında onların inkişafı yeni sənaye, istehsal, ictimai tikintilərin sayının artması ilə əlaqəli olduğu üçün, belə yanaşma əsasız sayılmır.